Qeyri-rəsmi tərcümə

**Corciya Ştatı**

**Nümayəndələr Palatası**

**1594 saylı Qətnamə**

Xocalı qətliamının 20-ci ildönümünü tanıyaraq və onun qurbanlarının həyat və xatirəsini yad edərək və digər məqsədləri əsas tutaraq,

25-26 fevral 1992-ci il tarixlərində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı motoatıcı alayı Azərbaycanın Xocalı rayonuna hücum etdilər və rayonun xilas olmağa çalışan sakinlərini amansızcasına qətlə yetirdilər;

613 mülki şəxs, o cümlədən 106 qadın, 63 uşaq və 70 yaşlı insan şaxtalı temperaturda işgəncəyə məruz qalmış, yüzlərlə digər şəxs isə itkin düşmüşdür;

1000 nəfər daimi sağlamlıq zədəsi almış, 1275 nəfər əsir götürülmüş, səkkiz ailə tam olaraq məhv edilmiş və 150-dən çox uşaq bir və ya hər iki valideynini itirmişdir;

Ermənistan rəsmən faciəyə görə məsuliyyətdən boyun qaçırmağa davam edir, lakin Prezident Serj Sarkisyan qətliamı "stereotipləri qırmaq" üçün qısas aktı kimi təsvir etmişdir;

1992-ci il Xocalı qətliamı müvafiq səviyyədə beynəlxalq tanınma əldə etməmişdir və qurbanların səmərəli şəkildə tanınması və xatırlanması məqsədəuyğundur.

**Bu səbəbdən indi Nümayəndələr Palatası qərara alır** ki, bu qurumun üzvləri bu il 1992-ci il Xocalı qətliamının 20-ci ildönümünün tamam olması ilə əlaqədar onun qurbanlarının həyat və xatirələrini yad etməyə qoşulsunlar və onların öldürülməsi ilə bağlı öz dərin və ən səmimi kədərlərini ifadə etsinlər.

**Həmçinin qərara alınır ki,** Nümayəndələr Palatasının katibinə bu qətnamənin müvafiq surətini ictimaiyyətə və mətbuata çatdırmağa icazə verilir və o, bu xüsusda təlimatlandırılır.